# NEFTÇALA: SOSİAL-İQTİSADİ İNKİŞAF ÖZ BƏHRƏLƏRİNİ VERİR





Azərbaycan Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin altı ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş geniş iclasında qeyd edildiyi kimi, respublikanın bölgələri sosial-iqtisadi inkişaf yolunda uğurlu addımlar atmışlar. Neftçala rayonunun sakinləri də quruculuq işlərində əllərindən gələni əsirgəmir, yaşayış məntəqələrinin iqtisadi və sosial tərəqqisində var qüvvələrini sərf edirlər.

**Rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyev** rayonun sosial-iqtisadi inkişafının 6 aylıq yekunlarına həsr olunmuş yığıncaqda iqtisadi və sosial quruculuq sahəsində həyata keçirilən tədbirlər haqqında geniş məlumat verərək söylədi ki, həmişə olduğu kimi, bu il də Neftçala rayonunun sosial-iqtisadi və mədəni həyatında uğurlu nəticələr əldə olunmuş, əhalinin rifahının yüksəldilməsi sahəsində səmərəli tədbirlər həyata keçirilmişdir. Cari ilin altı ayında əsas makroiqtisadi göstərici olan ümumi məhsul istehsalının həcmi çoxalmışdır. Prezident İlham Əliyevin rayona xüsusi qayğısı, insanların həyat şəraiti, quruculuq işləri ilə yaxından tanış olması, onun dəyərli məsləhətləri vətəndaşların yaradıcılıq əhval-ruhiyyəsini qat-qat artırmışdır.

2015-ci ildə rayonda görülən işlər bütünlükdə ürəkaçandır. Ümumi məhsul istehsalının həcmi 4,5 faiz artaraq 119,6 milyon manat olmuşdur ki, bu da 2014-cü ilin müvafiq dövrünə nisbətən 5,2 milyon manat çoxdur. Ümumi məhsulun 9,4 faizi sənayenin, 55,7 faizi kənd təsərrüfatının, 3,7 faizi tikintinin, 30,2 faizi ticarət və iaşənin, qalanı rabitə, nəqliyyat və digər xidmət sahələrinin payına düşür.

Cənab İlham Əliyevin sərəncamına əsasən 10 hektar ərazidə Sənaye məhəlləsi yaradılır.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu xeyli artaraq 66,6 milyon manat olmuşdur. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları əsasında fermerlərə güzəştli şərtlərlə mineral gübrələr, buğda toxumu satılmış, pul yardımı göstərilmişdir. Bu tədbirlərin faydası böyük olmuşdur. 2015-ci ilin məhsulu üçün taxıl əkinləri xeyli artırılaraq təqribən 43756 hektara çatdırılmış, məhsul yığımı qısa müddətdə başa çatdırılmış, hər hektardan 31,2 sentner olmaqla 136,6 min tondan çox məhsul istehsal edilmişdir. Əkinlərin məhsuldarlığını artırmaq məqsədilə suvarma sistemlərinin sahmana salınmasına diqqət artırılmışdır. Kür çayından Xol zonasına 25 kilometr uzunluqda magistral suvarma kanalının çəkilməsi sürətlə davam etdirilmiş, xeyli suvarma kanalları, hidrotexniki qurğu və nasos aqreqatları təmir edilmişdir.

2015-ci ildə təmir-tikinti təşkilatları və xidmətləri tərəfindən yerinə yetirilmiş işlərin həcmi 4,5 milyon manat olmuşdur ki, bu da 2014-cü ilin müvafiq dövründəkinə nisbətən xeyli artıqdır. Heydər Əliyev prospektində, M.Ə.Rəsulzadə, 20 Yanvar, M.Əsədov və digər küçə və meydanlarda xeyli iş aparılmış, yol kənarları abadlaşdırılmışdır. "Axmazgöl" ekoloji sağlamlıq zonasının, "Azercell-Ekspres" ofisinin, DSMF rayon şöbəsinin, Kənd Təsərrüfatı İnzibati Laboratoriyasının binalarının tikintisi başa çatmaq üzrədir. Hüseyn Cavid adına parkda yeni idman meydançası gənclərin və yeniyetmələrin istifadəsinə verilmişdir. Kürkənd, Yuxarı Qaramanlı, Aşağı Surra kəndlərində yeni məktəb binalarının tikintisi və təmirində xeyli iş görülmüşdür. Ərazilərdə 15 min ağac və gül əkilmişdir. Şəhərdə sakinlərin ekoloji cəhətdən təmiz içməli suya tələbatını ödəmək üçün yeni su xətləri çəkilmiş, nasosxanalar və su anbarları işlək vəziyyətə salınmış, kanalizasiya xidməti göstərilmiş, 31 kənddə sutəmizləyici qurğular yaradılmışdır.

Rayon ərazisində olan magistral və daxili yolların çəkilişi, bərpası və yenidən qurulması, yol kənarlarında piyada səkilərinin təzələnməsi, yol nişanlarının qurulması, bu səpkidə olan digər işlər yüksək səviyyədə icra edilmişdir. Qəsəbələrin və kəndlərin bir çoxunda yolların asfaltlaşdırılması tədbirləri həyata keçirilmişdir. 37 min nəfərlik əhalinin yaşadığı 21 yaşayış məntəqəsini birləşdirəcək Şorkənd-Beştalı-Bankə-Şirvanlı avtomobil yolunun çəkilişi əhali tərəfindən razılıqla qarşılanmışdır. Gələcəkdə Salyan-Neftçala şosesi əsaslı şəkildə təmir olunacaq.

Özəl bölmənin inkişaf etdirilməsi rayon rəhbərliyinin diqqət mərkəzində durmuş və bunun üçün münbit şərait təmin olunmuşdur. Sahibkarlığın inkişafına maliyyə yardımı göstərmək məqsədilə fiziki və hüquqi şəxslərə kreditlər verilməsi davam etdirilmişdir. 22 iş adamına 264 min manat güzəştli kredit verilmişdir. "Vahid pəncərə" sistemi uğurla tətbiq olunur, yeni sahibkarlıq subyektləri yaradılır. Son 6 ay ərzində rayonda 6 yeni müəssisə yaradılmış, 294 fiziki şəxs işə başlamışdır. Bunun nəticəsində regional inkişaf planlarının əsas konsepsiyalarından olan yeni iş yerlərinin açılması proqnozları təmin olunmuş, 393 daimi iş yeri yaradılmış, təkcə kənd təsərrüfatındakı mövsümi işlərə 1415 nəfər cəlb olunmuşdur.

Rayon əhalisinin rabitə sistemlərindən istifadəsini yaxşılaşdırmaqdan ötrü xeyli iş görülmüş, əhaliyə ötən ildəkindən 5,1 faiz çox xidmət göstərilmiş, ATS-lərin işi sahmana salınmış, peyk avadanlıqları quraşdırılmışdır. Nəqliyyatda yük daşınması 5,3 faiz, sərnişin daşınması 6,2 faiz artmışdır. Elektrik enerjisi, təbii qaz və içməli su ilə təminatının yaxşılaşdırılması məqsədilə müxtəlif tədbirlər həyata keçirilmişdir. Əhaliyə və təşkilatlara 68 milyon kilovat-saat elektrik enerjisi, 8,3 milyon kubmetr təbii qaz verilmişdir. Bu il Birinci Qaralı və Aşağı Surra kəndləri qazlaşdırılmış, hazırda Aşağı Qaramanlı, Qədimkənd, Xanməmmədli, Qaçaqkənd kəndlərində qazlaşdırma işləri aparılır.

Dövlətin və onun başçısının apardığı siyasətə uyğun əhalinin sosial şəraitinin yaxşılaşdırılması rayon rəhbərliyinin əsas fəaliyyət sahəsidir, əldə edilən uğurların əsas meyarı da məhz bu sahədir. Nominal pul gəlirləri 27,4 milyon manat olmuş, ötən ilin müvafiq dövrü ilə müqayisədə 5,4 faiz artmışdır. Adambaşına düşən pul gəlirləri isə 4,6 faiz çoxalaraq 325 manata çatmışdır. Hər bir işçinin orta aylıq əməkhaqqı 252,4 manat təşkil edir.

Pensiyaların və müavinətlərin ödənilməsində problem qalmamışdır. Hazırda pensiyaçılar 13382 nəfər, ünvanlı sosial yardım alan ailələrin sayı 955-dir, şəhid ailələri, əlillər, qocalar və tənha insanlar hər cür qayğı ilə əhatə olunmuşlar. 139 kimsəsiz, ahıl və əlil şəxslərə sosial-məişət xidməti göstərilir.

Təhsil, səhiyyə və mədəni quruculuq sahələrində xeyli iş görülmüşdür. Hazırda rayonda 51 ümumtəhsil məktəbi, 16 məktəbəqədər tərbiyə müəssisəsi fəaliyyət göstərir. Pedaqoji kollektivlərdə tədrisin keyfiyyətinin yaxşılaşdırılmasına daha yüksək səviyyədə diqqət yetirilmiş, xüsusilə buraxılış sinif şagirdlərinin bilik səviyyəsinin yüksəldilməsi rayon təhsil şöbəsinin və məktəb rəhbərlərinin diqqət mərkəzində saxlanılmış, buraxılış imtahanları uğurla başa çatdırılmışdır. Rayonda 160 çarpayılıq 2 xəstəxana, 15 həkim məntəqəsi, 4 tibb ambulatoriyası fəaliyyət göstərir. Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilmiş pulsuz müayinələrə 52 yaşayış məntəqəsində yaşayan 75981 nəfər cəlb edilmişdir.

Yığıncaq iştirakçıları yekdilliklə vurğuladılar ki, rayonun sosial-iqtisadi inkişafını təmin etmək, əhalinin güzəranını yaxşılaşdırmaq üçün daha gərgin işləmək gərəkdir. Qarşıya qoyulmuş yeni vəzifələrin layiqincə yerinə yetirilməsi uğrunda mübarizə indi daha geniş vüsət almışdır və göstəricilər onu deməyə əsas verir ki, neftçalalılar həmişə olduğu kimi, yenə də daha böyük əzmkarlıq nümunəsi göstərəcək, dövlət tapşırıqlarının həyata keçirilməsində öz sözlərini deyəcək, Vətəni sosial-iqtisadi quruculuqda daha böyük nailiyyətlərlə sevindirəcəklər.

**Sabir MUSTAFAYEV,**
**"Respublika"**